# XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Bakı ədəbi-mədəni mühiti

**Səbinə Əhmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: ehmedova3@mail.ru

**Annotasiya.** XIX əsrin birinci yarısında Azərbaycanda baş verən siyasi sarsıntılar, Azərbaycan ərazilərinin inzibati cəhətdən bölünməsi, ikinci yarısında isə yuxarıda qeyd olunduğu kimi, bazar iqtisadiyyatının inkişafı iqtisadiyyat və mədəniyyət sahəsində özünü göstərdi. Azərbaycan ədəbiyyatında yeniliklər yarandı, tərəqqi hər cəhətdən öz qapılarını Azərbaycan mədəniyyəti və ədəbiyyatının üzünə açdı və XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində uzun illərin təzyiq və sarsıntıları birdən-birə kəskin dəyişmələr, milli həyatın ilkin çarpışmaları, azadlıq eşqi, çaxnaşmalar, inqilablar, zamana uyğun mübarizələr Azərbaycan şeirində ciddi siyasi, ictimai, fəlsəfi şeir dili və üslubu dövrə müvafiq tam yeni keyfiyyət tələb edirdi.
Bu da, öz növbəsində, ədəbi mühitin yaranması üçün tarixi-mədəni amillər idi və məhz ədəbi mühitin yaranması Azərbaycanda mətbuatın da yaranmasına təkan verdi. 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən yaradılan "Əkinçi" qəzeti öz çevrəsinə Axund Əhməd Hüseynzadə, Seyid Əzim Şirvani, Təvaid, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhbus Dərbəndi, Həsən Əlqədari, Məhəmməd Tağı Əlizadə, Möhsün Badukubeyi, Kapitan Sultanov, Həsən Qara və s. kimi tərəqqipərvər ziyalıları toplayaraq fəaliyyətə başladı. Lakin müsəlmanlara qarşı olan haqsızlıqlar səbəbindən iki ildən sonra qəzet öz fəaliyyətini dayandırdı. XIX əsrin axırlarından maarifpərvər insanlar əvvəlcə rus dilində, sonra isə, yəni 1906-cı ildən etibarən bir-birilə yarışa girirmiş kimi heyrətamiz bir sıçrayışla "İttifaq", "Tərəqqi", "Səda", "Sədayi-haqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal", "Həyat", "Təkamül" və s. mətbu orqanları yaratdılar.
**Açar sözlər:** Əli Bakuvi, Cənnəti, "Məcməüş-şüəra", ədəbi-mədəni mühit, risalə, fəlsəfi şeir

**Məqalə tarixçəsi:** göndərilib – 01.02.2022; qəbul edilib – 08.02.2022

# Baku literary and cultural environment in the second half of the 19th century, at the beginning of the 20th century

**Sabina Ahmedova**
Doctor of Philosophy in Philology
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: ehmedova3@mail.ru

**Abstract.** The political upheavals happened in Azerbaijan in the first half of the 19th century, administrative separation of the territory of Azerbaijan and the development of a market economy in the second half of 19th century manifested themselves in the economic and cultural spheres, innovations appeared in the Azerbaijani literature, advancement opened its doors to Azerbaijani culture and literature in all aspects. The pressures and upheavals of many years, sudden changes, first conflicts of national life, love of fetterless freedom, commotions and revolutionary struggles,

political, social, philosophical language and style of poem in Azerbaijani poetry required brand new quality in the second half of the 19th century, at the beginning of the 20th century.
These were historical and cultural factors for the creation of a literary environment and this stimulated to the emergence of the press in Azerbaijan. The "Akinchi" ("Əkinçi") newspaper founded by Hasan bey Zerdabi in 1875 gathered progressive intellectuals such as Akhund Ahmed Huseynzade, Seyid Azim Shirvani, Tevaid, Necef bey Vezirov, Esgeragha Gorani, Mehbus Derbendi, Hasan Elgedari, Mahammad Taghi Elizade, Mohsun Badukubeyi, Capitan Sultanov, Hasan Qara and others, around it and began its publication. But there were injustices against Muslims and for this reason, the newspaper's activity were suspended within two years of operation. From the end of the 19th century, enlightened people first established the press organs in Russian, and then, since 1906 they created the press organs such as "Ittifag", "Tereggi", "Seda", "Sedayi-haqq", "Teze hayat", "Hummet", "Kaspi", "Fuyuzat", "Yeni Fuyuzat", "Ari", "Babayi-Amir", "Tuti", "Mezeli", "Kelniyyet", "Shelale", "Irshad", "Ittifag" "Zenbur", "Igbal", "Hayat", "Tekamul" and others.
**Keywords:** Ali Bakuvi, Jenneti, "Mejmeush-shuara", literary and cultural environment, risale, philosophical poem

**Article history:** received – 01.02.2022; accepted – 08.02.2022

## Giriş / *Introduction*

XIX əsrin birinci yarısında Azərbaycanda baş verən siyasi sarsıntılar, Azərbaycan ərazilərinin inzibati cəhətdən bölünməsi, ikinci yarısında isə yuxarıda qeyd olunduğu kimi, bazar iqtisadiyyatının inkişafı iqtisadiyyat və mədəniyyət sahəsində özünü göstərdi. Azərbaycan ədəbiyyatında yeniliklər yarandı, tərəqqi hər cəhətdən öz qapılarını Azərbaycan mədəniyyəti və ədəbiyyatının üzünə açdı. XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində uzun illərin təzyiqləri, birdən-birə kəskin dəyişmələr, milli həyatın ilkin çarpışmaları, buxovsuz azadlıq eşqi, çaxnaşmalar, inqilablar, zamana uyğun mübarizələr Azərbaycan şeirində ciddi siyasi, ictimai, fəlsəfi şeir dili və üslubu dövrə müvafiq tam yeni keyfiyyət tələb edirdi.

Bu da, öz növbəsində, ədəbi mühitin yaranması üçün tarixi-mədəni amillər idi. Məhz ədəbi mühitin yaranması Azərbaycanda mətbuatın da yaranmasına təkan verdi və 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən yaradılan "Əkinçi" qəzeti öz çevrəsinə Axund Əhməd Hüseynzadə, Seyid Əzim Şirvani, Təvaid, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhbus Dərbəndi, Həsən Əlqədari, Məhəmməd Tağı Əlizadə, Möhsün Badukubeyi, Kapitan Sultanov, Həsən Qara və s. kimi tərəqqipərvər ziyalıları toplayaraq fəaliyyətə başladı. Lakin müsəlmanlara qarşı olan haqsızlıqlar səbəbindən iki ildən sonra qəzet öz fəaliyyətini dayandırdı. XIX əsrin axırlarından maarifpərvər insanlar əvvəlcə rus dilində, sonra isə, yəni 1906-cı ildən etibarən bir-birilə yarışa girirmiş kimi heyrətamiz bir sıçrayışla "İttifaq", "Tərəqqi", "Səda", "Sədayi-haqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal", "Həyat", "Təkamül" və s. mətbu orqanları yaratdılar.

## Əsas hissə / *Main Part*

Bakı çağdaş anlamda kapitalist, tacir, fəhlə, kəndli, ziyalı və başqa təbəqələrdən ibarət bir şəhər idi. Fəhlələrin əksəriyyəti şah üsul-idarəsinin haqsızlıqlarından, zorakılığından Bakıya pənah gətirmiş cənubi azərbaycanlılar və çar-üsul idarəsi tərəfindən torpaqları, heyvanları əllərindən alındığı üçün şəhərə iş dalınca gələn kəndlilər idi.

Sosializm ideologiyası zamanında, təbii ki, ideologiyanın tələblərinə uyğun olaraq, Bakıya iş dalınca gələn insanların guya zəngin təbəqə tərəfindən hamısına qarşı haqsızlıqların, ədalətsizliklərin tüğyan eləməsi fikri formalaşmışdı. Lakin bu, əslində, belə deyildi. Düzdür, sahibkarlar arasında fəhlələrə qarşı ədalətsizlik edənlər də az deyildi. Lakin tarixi faktlar göstərir ki, Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, İsabəy Aşurbəyli, Seyid Mirbabayev, Hacı Şıxəli, Hacı Hacağa, Hacı Əliabbas, Kərbəlayi İsrafil və s. kimi neftxudalar heç vaxt onların neft mədənlərində çalışan fəhlələrə haqsızlıq etməmiş, hətta öz ziyanları hesabına olsa belə, onların əməkhaqqını vaxtlı-vaxtında ödəmiş, o cümlədən Hacı Zeynalabdin Tağıyevin başçılığı ilə yaratdıqları Müsəlman Xeyriyyə Cəmiyyətində mütəmadi yığışaraq, tək Bakı şəhərində deyil, həm də Azərbaycanın başqa bölgələrində yaşayan xalqın kasıb təbəqəsinə maddi cəhətdən yardım eləməkdən ötrü xüsusi adamlar ayıraraq, kasıb ailələrə hər ay un, şəkər, yağ, düyü, başqa ərzaqlar, o cümlədən məişətdə işlənən ləvazimatlar göndərmişlər.

Bundan əlavə, bu xeyriyyəçilər yuxarıda qeyd olunduğu kimi, həm də maarifpərvər insanlar idi və elmin, təhsilin bir xalqın məfkurəsində necə güclü işıqlar yandırdığını çox gözəl bildiklərinə görə, xalqın övladları üçün elm-təhsil ocaqları açdırmaqda, inşa etdirməkdə, eyni zamanda istedadlı gəncləri Londona, Parisə, Peterburqa, Odessaya, Nəcəfül-Əşrəfə elm arxasınca göndərməkdə bir-birilə sanki yarışa girirdilər.

Təsadüfi deyil ki, Bakı milyonçusu Seyid Mirbabayevin vəsaiti ilə fəaliyyət göstərən Qori Müəllimlər Seminariyasının müsəlmanlar üçün açılan şöbəsi 250 müəllim hazırlayaraq, onları Cənubi Qafqazın cürbəcür bölgələrindəki məktəblərdə müəllim işləməyə göndərmiş və minlərlə yeniyetmənin, gəncin savadlanıb xalqına xeyir verməsinə səfərbər etmişdi. Bundan başqa, Parisdə, Londonda, Peterburqda, Odessada, yüksək ilahiyyat elmləri tədris eləyən İraqın Nəcəfül-Əşrəf şəhərində təhsil arxasınca göndərilən yüzlərlə gənc yüksək ali təhsil alaraq vətənə dönmüş və xalqının tərəqqisi uğrunda heyrətamiz dərəcədə fədakarlıq göstərmişlər.

Bu dövrdə, eyni zamanda xalqda hürr yaşamaq arzusu daha da qüvvətlənmişdi və Azərbaycan ziyalıları xalqın bu arzusunu həyata keçirməkdən ötrü yollar axtarırdılar.

Bununla bağlı Azərbaycan türk fəlsəfi və ictimai fikrində müstəsna xidmətləri olan, eyni zamanda türkçülük ideyasının rəhbəri Əli bəy Hüseynzadə yazırdı: "Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir. Bu məmləkətdə heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz. Heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qafqaz, hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır, bu rollardan ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir" [2].

XX əsrin əvvəllərində başlanan inqilabi hərəkat Azərbaycanda milli-azadlıq hərəkatının qüvvətlənməsinə səbəb oldu və bu da, öz növbəsində, milli dilin – ana dilinin inkişafına təkan verdi. Hələ XIX əsrin 80-ci illərindən başlanan mətbuat, maarif və ana dilində dərslik məsələləri ilə meydana çıxan ana dilinin təmizliyi və kütləvi inkişafı XX əsrin əvvəllərində öz bəhrəsini verdi. Milli dilin inkişafı, təbii ki, milli məfkurənin, milli özünüdərkin inkişafında da bilavasitə özünü göstərməkdə idi. Bu, xalqın milli mənlik şüurunu yüksəldən amillərdən biri idi. Azərbaycan ziyalılarının bu işdə xüsusi əzmkarlığı və çalışqanlığı milli dilin inkişafı üçün mənəvi-psixoloji zəmin yaradırdı. Təbii ki, bu işdə mətbuat ön yerdə idi ki, şairlər milli dilin inkişafı üçün xüsusi fədakarlıq göstərərək ana dilinin bir xalq, bir millət üçün nə qədər dəyərli olduğunu bildirən şeirlər yazırdılar.

Lakin şairlər yuxarıda qeyd olunduğu kimi, bununla kifayətlənmir, gənclərə vətənpərvərlik ruhu aşılayan, istiqlal və istiqbal ruhunda, eyni zamanda gənc nəslin artıq soykökünü tanımağına görə bir-birindən gözəl, möhtəşəm əsərlər yaradırdılar. Bakı ədəbi mühitinin yetişdirməsi Əlabbas Müznib vətənə olan sevgisini canlı mənzərələrlə, poetik lövhələrlə bu şəkildə bəyan edirdi:

*Azərbaycan çəpik güllər baxçası,*
*Bakıxanovlar gülzarıdır bu ölkə.*
*Məhəmməd xan, Əhməd xanlar məskəni,*
*Cavad xanlar məzarıdır bu ölkə.*

*Turan irqi bu ölkədə boy atmış,*
*İgidliyin sancağını ucaltmış,*
*Dünyaları qeyrət ilə donatmış,*
*Qəhrəmanlar peykarıdır bu ölkə.*

*Moskovlular gözlərini yumdular,*
*Turanlıya "bar-bar"- deyə cumdular.*
*Pozuldular, axır geri döndülər,*
*Xırsızların qahharıdır bu ölkə.*

*Çəkil, çəkil, ey alçaq əl, sən çəkil!*
*Tökül, tökül, ey xain göz, sən tökül!*
*Bükül, bükül, ey çək, artıq en, bükül!*
*Müəzzənlər dərdarıdır bu ölkə.*

*Məbudumuz-üç boyalı bayrağı,*
*Kəbəmizdir hər bir ovuc torpağı.*
*Sevməz bu yer hər xaini, alçağı,*
*Doğruların asarıdır bu ölkə.* [4, s.106]

Bakı şəhəri Qafqazda ən böyük şəhər idi və XIX əsrin sonlarından etibarən bu şəhərdə elə bir inkişaf mərhələsi başlamışdı ki, artıq XX əsrin onuncu illərində başda Hacı Zeynalabdin Tağıyev olmaqla, azərbaycanlı neftxudaların inşa etdirdikləri möhtəşəm binalar, kombinatlar, pasajlar, lokantalar, mağazalar, klublar, əsrarəngiz bağlar, parklar, bulvar, bir-birindən gözəl imarətlər və s. bu sənaye şəhərini dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişdi. Lakin 1918-ci ilin mart ayının sonundan Qafqaz İslam Ordusu Bakını işğaldan azad elədiyi günə, yəni 15 sentyabra qədər Stepan Şaumyanın fitvası ilə daşnak-bolşevik neofaşist hərbi birləşmələri Bakı şəhərindəki ən möhtəşəm abidələri yandırdılar. 1918-ci ilin mart ayının sonundan etibarən 70 faizi ermənilərdən, 30 faizi ruslardan ibarət bolşevik matroslar Bakı şəhərindəki müsəlman abidələrini, o cümlədən indiki AMEA Rəyasət Heyətinin yerləşdiyi, Ağamusa Nağıyevin vaxtsız vəfat etmiş oğlu İsmayılın şərəfinə inşa etdirdiyi "İsmailiyyə" binasını, "Təzəpir" məscidini, XII əsrdə Şirvanşah Mənuçöhr tərəfindən inşa edilmiş Qız qalasını və bir çox abidələri gəmilərdən top atəşinə tutdular. Bu top atəşləri "İsmailiyyə"ni tamam yandırdı, "Təzəpir" məscidinə böyük xəsarətlər yetirdi, lakin Qız qalasının bir daşını da sala bilmədi. Bundan əlavə, bolşevik matroslar Bibiheybət ziyarətgahını və məscidini dağıtmaq istəsələr də, bacarmadılar, ora tuşlanan onlarla top mərmilərinin heç biri müqəddəs dərgaha dəymədi. Bunu da qeyd edək ki, bir neçə aydan sonra Azərbaycana qardaş köməyinə gəlmiş Qafqaz İslam Ordusunun igid əsgərləri həmin yetmiş faiz ermənilərdən, otuz faiz ruslardan ibarət matros gəmilərini məhz top atəşləri ilə Xəzərin sularında batırdılar. 1920-ci ilin 28 aprelində isə o vaxtdan Azərbaycandan intiqam almaqdan ötrü dişlərini qıcayan V.İ.Leninin göstərişilə başlarında cəllad general Pankratov, Mikoyan, Baqdasaryan, Baqramyan, Levandovski olmaqla, 11-ci qırmızı ordu şəhəri viran eləməsəydi, Bakı şəhəri az zaman keçəndən sonra bütün dünyada tayı-bərabəri olmayan bir şəhərə çevrilərək, Londonu, Parisi, Romanı, Peterbuqu kölgədə qoyacaqdı.

Lakin XX əsrin əvvəllərində Bakı şəhərini və bütün Azərbaycanı mənəvi cəhətdən işğal edənlər də kifayət qədər idi və bunlar, əsasən, əsrin əvvəllərindən fəaliyyət göstərən bolşevik mətbuatı idi.

1906-cı ilin aprelində Bakıda "Bakinski raboçi" qəzeti çıxmağa başladı. Qəzetin ilk redaktorları A.Caparidze, V.Niokin və Radus Zenkoviç idi. Elə həmin günlərdə erməni bolşeviki L.Kununyantsın rəhbərliyi ilə "Banvori dzayn" ("Fəhlə səsi") qəzeti fəaliyyətə başladı. Bu qəzetlər guya fəhlələr arasında beynəlmiləl tərbiyə işində, kütləri çarizmə və yerli burjuaziyaya qarşı səfərbər edirdilər. Lakin əslində onların, xüsusilə də, Kununyantsın məqsədi tamam başqa idi. Bakını və bütün Azərbaycanı tamamilə müsəlman-türk əhalidən təmizləyib, bu ərazidə erməni dövləti yaratmaq istəyirdilər.

Bu ərəfədə, daha doğrusu, 1906-cı il mayın 26-dan etibarən Azərbaycan və erməni dillərində "Dəvət-qoç" qəzeti çıxmağa başladı. Bu qəzetdə M.Əzizbəyov, A.Caparidze, S.Əfəndiyev və M.Melikyan fəaliyyət göstərirdilər və guya sinfi mübarizə aparırdılar. Əslində isə M.Əzizbəyov, S.Əfəndiyev, Qəzənfər Musabəyov, Həmid Sultanov, Çingiz İldırım, Dadaş Bünyadzadə, Əliheydər Qarayev, Ruhulla Axundov və s. ən böyük xalq düşmənləri idi, belə ki, 1918-ci ilin mart qırğını zamanı daşnak-bolşevik hərbi birləşmələrinə qoşularaq, Bakı şəhərində – çoxsayda müsəlman-türkün (azərbaycanlıların –

S.Ə.) ölümünə fitva vermişdilər. Caparidze isə gürcü olsa da, ermənilərə satılmışdı. Melikyan isə erməni olduğu üçün bütün erməni siyasətçiləri, jurnalistləri, yazarları, publisistləri kimi, "böyük Ermənistan" yaratmaq fikrində idi və Tiflisdə erməni dilində "Qayts" ("Qığılcım") qəzetini buraxan Stepan Şaumyandan göstərişlər alaraq, Azərbaycan və türk xalqlarına qarşı qətliamlar planı hazırlamaqda idi.

Azərbaycanlı satqınların ermənilərlə birləşərək Azərbaycan xalqını yer üzündən silmək istəklərini Səməd Mənsur qoşma janrında aşıq deyişməsi ilə satira atəşinə tuturdu:

**QOCA AŞIQ**

*O kimdir ki, alov yağır gözündən?*
*O kimdir ki, mənə çıxmır sözündən?*
*O kimdir ki, qorxar özü-özündən?*
*Buna cavab verən aşıq var olsun!* [1]

**CAVAB**

*Mirzoyandır alov yağır gözündən,*
*Mirbəşirdir mənə çıxmır sözündən,*
*Qəzənfərdir qorxar özü-özündən,*
*Söz soran aşığa Allah yar olsun.* [1]

Bakı şəhər limanının sahili şərqdə Zığ burnundan başlayıb, qərbdə Şıx burnuna qədər 24 kilometr uzanırdı və şəhərboyu qeyd etdiyimiz kimi, məscidlər, onların göydələn minarələri, imarətlər, lokantalar, mağazalar, pasajlar, qış və yay klubları, füsunkar bağlar, parklar, Tağıyev teatrı, rüşdiyyə məktəbləri göz oxşayırdı. Bakı onsuz da gözəl bir şəhər idi, lakin XIX əsrin sonlarından başlayaraq, elm və təhsil ocaqlarının çoxalması, xalqın gözünün açılması, maariflənməsi, milli məfkurənin inkişafı, milli özünüdərk, şarlatan mollaların saxtakarlığının üzə çıxması, ən əsası isə xalqın gənclərinin savadlanması, təhsil görməsi Bakı ədəbi mühitinə öz müsbət təsirini göstərirdi və bakılı şairlərin yaradıcılığında əks etdirilirdi. Çünki xalqın savadsızlığı, elmsizliyi, təhsil görməməsi bu sənətkarların ən yaralı yeri idi. Məsələn, Bakı ədəbi mühitinin ən tanınmış şairlərindən biri Əbdülxalıq Cənnəti elmin, təhsilin, savadlanmağın insana nə qədər xeyirli olduğunu özünün "Kitab" şeirində bu şəkildə ifadə edir:

*Əhli-ruhə, ey oğul, bir munisi-candır kitab,*
*Qəlbə qüvvət, çeşmə taqət, cana-canandır kitab.*

*Zaiqən salimsə gər, var onda ğəsmari-əziz,*
*Kim, qələm əşcarə malik, bağі-bustandır kitab.*

*Hər xiyabanində minlərcə gül açmış rəngi-rəng,*
*Əhlinin indində pirqiymət gülüstandır kitab.*

*Hikmətü-elmi ədəblə sərasər məhşun ikən,*
*Mən nə tərif eyləyim, hər vəsfə şayandır kitab.*

*Taxsa gər mərdi-siyaydan bəsirət eynəyin,*
*Cənnəti tək söyləyər, hətta ki, Qurandır kitab.*
[1, s.79]

Ə.Müznib bir tədqiqatçı kimi, bakılı şairlərinin əlyazmalarını toplayaraq, kiçik bir təzkirə şəklində tərtib etmişdir. Əlyazmalar İnstitutunda Ə.Müznibin zəngin arxivində bir şifrə altında çoxlu əlyazması saxlanılır. Vaxtilə Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı möhtəşəm bir əsər meydana gətirmişdi və çox qəribə də olsa, böyük maarifçi-publisist F.Köçərli 1920-ci ildə Gəncədə 25 min iştirakçı ilə birlikdə bolşevik hökumətinə qarşı üsyanda iştirak etdiyinə görə, Həmid Sultanovun başçılığı ilə on minlərlə gəncəlini qətlə yetirən bolşeviklər F.B.Köçərlini həbs edərək, Bakıya "Палач" (Cəllad) ləqəbli Pankratovun "Особый отдел"inə gətirmiş, orada isə mütəfəkkirə işgəncələr verilərək öldürülmüşdü. Lakin buna baxmayaraq, Sovetlər dönəmində F.B.Köçərli tədqiqatçılar tərəfindən dəfələrlə tədqiq olunmuş, onun həm publisist, həm ədəbiyyat tarixçisi, həm teatr tənqidçisi, həm Qori Müəllimlər Seminariyasının müsəlman yeniyetmələrdən ötrü şöbəsi üçün tərtib edilmiş "Vətən dili" dərsliyinin müəlliflərindən biri, həm "Balalara hədiyyə" dərsliyi və başqa dərsliklərin müəllifi, həm də çox istedadlı bir pedaqoq kimi çoxşaxəli yaradıcılığı işıqlandırılmışdı.

Çox şükürlər olsun ki, Ə.Müznibin əlyazmaları AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda müxtəlif şifrələr altında saxlanılır. Bu əlyazmalarda D-357 şifri altında XIII əsr şairi Hüseyn bəy Vəhdətin, Fond 23 s/v 153 şifri altında XIV əsrdə Hilalinin şeirləri,

Nəsir Bakuvinin bir şeiri, Fond 23, s/v 139 şifrəsi altında 36x15 sm ölçülü bir vərəqdə Saleh adlı şairin əsərləri, Fond 23 s/v 140-da isə həmin şairin yaradıcılığını əks etdirən məqalə, Fond 23 s/v 141 şifrəsi altında saxlanan 21x18 sm ölçülü vərəqlərdə XV əsrdə yaşamış Seyid Yəhyanın əsərləri saxlanılır. Bundan başqa, Ə.Müznibin toplanmış materialları içərisində bir çox bakılı şairlərin şeirləri vardır ki, onların hansı dövrdə yaşadıqları məlum deyil. Ə.Müznibin Əlyazmalar İnstitutunda D-357-ci şifrəsi altında saxlanılan əlyazması olan cüngdə 166-cı səhifədə Əli Bakuvinin şeirləri vardır.

1810-cu ildə Bakıda anadan olmuş, 1882-ci ildə vəfat etmiş Mirzə Bağırın bir qəzəli D-257 şifrəsi altında saxlanılır. 1828-ci ildə anadan olmuş, 1908-ci ildə vəfat etmiş Mirzə Həsib Əliqulu oğlu Qüdsinin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-2680 şifri altında saxlanılan qovluqda xeyli şeiri və qəzəli vardır. Şairin "Mövludi-Nəbi" əsəri başda Hacı Zeynalabdin Tağıyev olmaqla, Həzrəti Məhəmməd səllahi-əleyhi və alihi vəssələmin mübarək yolu ilə gedərək xeyriyyəçi, maarifpərvər, xalqın qayğısına qalan, rifahının yüksəlməsi üçün çalışan insanlar haqqında çox zəngin bir şeir nümunəsidir.

Əlyazmalar İnstitutunda B-1620 şifrəsi altında XIX əsrin sonlarında, XX əsrin əvvəllərində tək Bakıda deyil, Qarabağda, Lənkəranda, Şirvanda, Qubada tanınmış məhşur şair Əbdülxalıq Yusif haqqında məqalələr və sənətkarın şeirləri vardır.

Bəzi tədqiqatçılar "Məcməüş-şüəra"nın 1880-ci ildən fəaliyyətə başlandığını yazırlar, lakin bu, səhvdir, çünki Ə.Müznibin Əlyazmalar İnstitutunda C-218 şifrəsi altında 24/23 s/m ölçülü 218 vərəq həcmindəki əlyazmasında "Məcməüş-şüəra"nın 1860-cı ildən fəaliyyətə başladığı qeyd olunub: "Bakudə 1860-cı ildə "Məcməüş-şüəra" təsis olunmuş, bütün Bakunun Məhəmmədağa Cürmi, Mirzağa Dilxun, Zilali, Ağadadaş Sürəyya, Vahab Vəhib, Mirzə Rzaqul Həzari, Mirzə Məhəmmədəli Məhdi, Əlabbas Müştaq, Mirzə Məhəmməd Məsud, Mirzə Əbdülxalıq Yusif, Mikayıl Seydi, Mirzə Əbdülxalıq Cənnəti, Ağadadaş Müniri, Mirzə Hadi Sabit Haşım bəy, Əbülhəsən Vaqif gibi klassik şairlər orada çalışmış, bütün ədəbiyyat işlərində iştirak etmişdir" [2].

Onu da qeyd edək ki, Ə.Müznibin fraqment-1475 şifri altında saxlanılan əlyazmasında Əbdülxalıq Cənnəti haqqında məlumat verilir:

"Əbdülxalıq Qafarzadə Cənnəti 1855-ci (hicri 1272) ildə Bakıda anadan olmuşdur. Ata babası məhşur Bakı xanı Hüseynqulu əmirşikarı (ovçubaşı) olan Səfər Əlinin oğludur. 9 yaşında dərsə getmiş, iki il yarım xüsusi müəllim yanında oxumuşdur. 12 yaşında fəhləliyə getmiş, nökərçilik etməsə də, xırda alver ilə məşğul olmuş və nəhayət, ara həkimliyi ilə əttarlıq etmişdir. 18 yaşında şeir deməyə başlamış, qazandığını kitaba vermiş, müstəsna bir həvəslə məqaləyə girişmişdir. Gündüzlər fəhləlik edər, gecələr ürəfa məclislərində ədəbiyyat söhbətlərində iştirak edərdi. Cənnəti neçə dəfə şairlər məclisində şeirləşmədə üstünlük qazanmışdır. İti hafizəsi sayəsində uzun bir qəsidəni üç dəfə oxuyar və başdan-ayağa əzbər deyər və yazarmış. Əvvəllər Vasif, Əttar Həccarzadə və Daşkəsənoğlu təxəllüslərini qəbul etmişdi. Sonralar bağü-bostana, gülüstana həris olduğundan, təxəllüsünü dəyişib "Cənnəti" qəbul etmişdir. Dostlarından olan bir ruhani ona rast gəldikdə zarafatla soruşmuşdur:

- Nə yazmısan, ay cəhənnəmi?

Şair bu suala badəhətən şəstlə cavab vermişdir:

*Mən nə anəstəm ki, cəmi pişva danəd məra,*
*Nə əz onha ki, bəzi biəsə ranəd məra.*
*Düsti hərgəh beşuxi düzəxi quyəd çe bak,*
*Hatifi-qeybi dəmadəm Cənnəti xanəd məra.*

[3, s.32-33]

Cənnətinin ədəbi fəaliyyəti həddindən artıq çoxşaxəlidir. Ədib dini mövzuda "Mühəssənafişəriyyət", "Nəsihətnamə", "Yənbül-hikmət", "Təhvilla-övzan", "Qəvaidi-ədəbiyyə" adlı risalələri, ilahiyyat elmləri arasında yer tutan "Əxlaq" elminə aid üçcildlik əsəri, altı min beytlik bir divanı, eyni zamanda "Əl-səfər fil-həzər" adlı bir romanı vardır.

Göründüyü kimi, Cənnəti olduqca çətin ilahiyyat elmlərinə mükəmməl şəkildə yiyələndiyinə və Azərbaycanda ilk dəfə olaraq ilahiyyat elmlərinə aid kitablar yazdığına baxmayaraq,

"Üsuli-cədid" məktəbi yaradarkən İslam dinindən tamamilə xəbərləri olmayan, lakin din pərdəsi altında avam insanların dərisini soyan münafiq mollalar məktəb binasındakı skamyaları və başqa əşyaları, eyni zamanda dərs ləvazimatlarını küçəyə töküb yandırmışlar.

Azərbaycanda mollalar sanki qarşılarına məqsəd qoyaraq xalqın maariflənməsinə, savadlanmasına, təhsil almasına mane olmağa çalışmış, çox böyük günahlara qatılaraq, İslam dini adından çıxış edib guya elm oxumağın İslamda haram sayıldığını, elmlə məşğul olanların cəhənnəmdə yanacaqlarını car çəkmişlər. Onların bu riyakarlığına qarşı M.Ə.Sabir kimi, Bakı ədəbi mühitinin şairləri də şeirlər yazmış və həmin əsərlərdə bu şarlatan mollaların iç üzünü açıb göstərərək onları satira atəşinə tutmuş, ifşa etmişlər.

## Nəticə / *Conclusion*

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı öz milli, Ümumşərq və Qərb dəyərləri əsasında inkişaf edərək, müasir dünya ədəbiyyatının qabaqcıl milli hadisələrindən birinə çevrilmişdir; Azərbaycan ədəbiyyatının tarixi varlığı ilə mövcudluğu məhz bu əsrdə bütün zənginliyi, bütün tarixi və ərazi hududları ilə meydana çıxmış, özünü təsdiq edə bilmişdir.

Bakı ədəbi mühiti XIX əsrin sonu, XX əsrin əvvəllərində inkişaf yolu keçərək, görkəmli ədəbi şəxsiyyətlərin, yeni milli mətbuatın, teatrın, operanın, milli ədəbiyyatın zənginləşməsi və mədəni yüksəlişin tərəqqisində böyük rol oynadı.

## Ədəbiyyat / *References*


1. "Deyilən söz yadigardır". Toplayan: Cəfər Rəmzi. Nəşrə hazırlayan və ön sözün müəllifi: Sona Xəyal. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: 2019.
2. "Həyat" qəzeti, 1906-cı il, 2 iyul № 43.
3. Sona Xəyal. Əliabbas Müznib. Bakı və bakılı şairlər haqqında. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 5 dekabr 2001-ci il tarixli, 11 №-li iclasının qərarı ilə nəşr olunub. Bakı: Nurlan, 2003.
4. Vüqar Əhməd. Azərbaycan Uşaq Ədəbiyyatı. Bakı: Müəllim, 2006.


# Бакинская литературно-культурная среда второй половины XIX – начала XX вв.


**Сабина Ахмедова**
Доктор философии по филологии
Институт рукописей имени Мухаммеда Физули НАНА. Азербайджан.
E-mail: ehmedova3@mail.ru



**Резюме.** Имевшие место в первой половине XIX века политические катаклизмы, административное деление территории Азербайджана, а во второй половине столетия развитие рыночной экономики отразились в области экономики и культуры. Азербайджанская литература получила обновление, расширил свои границы повсеместный прогресс азербайджанской культуры и литературы. Во второй половине XIX и первой половине XX вв. резкие потрясения после многолетних притеснений, первые прорывы в жизни нации, воля к свободе, революционные схватки потребовали соответствующие времени качественно новые серьёзные политические, общественные, философские видоизменения в языке и стиле

азербайджанского стихосложения. Это, в свою очередь, послужило историко-культурным фактором в создании литературной среды и толчком для создания прессы в Азербайджане. В 1875 году началась деятельность Гасан бека Зардаби по созданию газеты «Экинчи» («Пахарь»), собравшего вокруг себя представителей прогрессивной интеллигенции в лице Ахунд Ахмеда Гусейнзаде, Сеид Азима Ширвани, Таваида, Наджаф бека Везирова, Аскерага Горани, Махбуса Дарбанди, Гасана Алгадари, Мохаммеда Таги Ализаде, Мохсуна Бадукубеи, Капитана Султанова, Гасана Гара и др. Однако из-за чинения несправедливостей по отношению к мусульманам через два года деятельность издания была остановлена. Но с конца XIX века просветителями сначала на русском языке, а с 1906 года, как бы соревнуясь, с поразительным воодушевлением стали издаваться газеты «Иттифаг», «Терегги», «Сада», «Садаи-хагг», «Тезе хаят», «Химмет», «Каспи», «Фиюзат», «Ени фиюзат», «Ары», «Бабаи-Амир», «Тути», «Мезели», «Келнииййет», «Шелале», «Иршад», «Зенбур», «Игбал», «Хаят», «Такамюль» и др. печатные органы.

**Ключевые слова:** Али Бакуви, Джаннати, «Маджма уш-шуара», литературно-культурная среда, послание, философское стихотворение